# Universitetlərdə təhsilalanların elmi tədqiqat fəaliyyəti: məqsədi, vəzifələri və problemləri

**(əvvəli ötən sayımızda)**

UNEC-də tələbələrin elmi fəaliyyətini artırmaq üçün aşağıdakı üsullardan istifadə olunur:

***1. iqtisadiyyatın real sektorundan mütəxəssislərin cəlb edilməsi ilə müzakirələrin aparılması;***
***2. tələbələrin təsərrüfat-müqavilə işlərinin və elmi tədqiqat layihələrinin icrasına cəlb edilməsi;***
***3. kiçik akademik qrupların formalaşdırılması.***

UNEC-də 11 tələbə təşkilatı mövcuddur. Ənənəvi tələbə təşkilatları ilə yanaşı, Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmış "İqtisadçı Tələbələrə Dəstək" İB və "İqtisadçı Tələbələrin Elmi Fəaliyyətinə Yardım" İB fəaliyyət göstərir. Universitetimizdə təhsil alan 374 nəfər əcnəbi tələbələrlə yerlilər arasında da düzgün sosial-iqtisadi inteqrasiyasını təmin etmək, əcnəbi vətəndaşlara Azərbaycanın zəngin mədəni irsi, tarixi, adət-ənənələri və milli dəyərləri haqqında məlumat vermək məqsədi ilə "Cross-Cultural Club" adlı təşkilat yaradılmışdır.

Son illərdə tələbələrimiz Tələbə Elmi Cəmiyyətinin (TEC) xətti ilə universitet, respublika və beynəlxalq səviyyədə keçirilən bir sıra elmi konfranslarda, forum və müsabiqələrdə fəal iştirak edir, intellektual oyunların qalibi olaraq, yüksək nailiyyətlər əldə edirlər.

Belə ki, ideya müəllifi alman Qreqor Beninə məxsus olan və ilk dəfə 2006-cı ildə Almaniyanın Darmştadt şəhərində təşkil edilən "Science Slam" yarışına bu günə kimi Böyük Britaniya, Rusiya, Ukrayna və Türkiyə qoşulub. Dünya üzrə 6-cı ölkə kimi 2017-ci ildən etibarən ilk dəfə olaraq Azərbaycanda, məhz UNEC-də beynəlxalq "Science Slam" elm müsabiqəsinə start verilmişdir. "UNEC Science Slam" müsabiqəsinin əsas fəlsəfəsi - həyatımızın ayrılmaz hissəsi olan elmi informasiyalarla dolu, anlaşılmayan termin və formullarla deyil, tam fərqli üslubda, bilinən elmə fərqli prizmadan baxaraq onun populyarlaşdırılmasına, tələbələrimizin dünya elminə çevik inteqrasiyasına dəstək olur və xüsusən tələbələr arasında elmi fəaliyyətin stimullaşdırılmasına xidmət edir. Belə ki, layihənin şərtlərinə uyğun olaraq, "Science slam"da iştirakçılar araşdırdığı mövzunu və ya hər hansı bir alimin elmi tədqiqatını 10 dəqiqə ərzində auditoriyaya çatdırmalıdır. Araşdırmada iqtisadi baxış olmalıdır. Layihənin önəmi ondan ibarətdir ki, dinləmələr yalnız qeyri-rəsmi şəraitdə, musiqi və vizual görüntülərin müşayiətilə aparılır. İzləyicilər bəyəndikləri tədqiqat işini əl çalmaqla alqışlayır, daha çox alqış səsi qazanan (səsölçən aparat vasitəsilə) tədqiqatçılar qalib hesab edilir. Bu müsabiqə elmin populyarlaşması üçün unikal bir formatdır və intellektual potensialın möhkəmlənməsində önəmli rol oynayır.



"Science Slam" elm müsabiqəsi üzrə I, II və III yerləri qazanan tələbələrin həmin müsabiqəyə təqdim etdikləri elmi-tədqiqat işinin Yekun Dövlət Attestasiya Komissiyası tərəfindən buraxılış işi kimi qəbul edilməsi nəzərdə tutulmuşdur. UNEC ölkədə geniş rezonans yaratmış "Science Slam" müsabiqəsinin ilk dəfə olaraq orta məktəblərdə yuxarı sinif şagirdlərində elmin müxtəlif sahələrinə maraq oyatmaq məqsədi ilə məktəblərdə (60, 160 və 189-190 nömrəli məktəblər) təbliğ edilməsini həyata keçirmişdir.

"İqtisadçı Tələbələrə Dəstək" İB ("İTD" İB) fəaliyyəti dövründə tələbələrə vətənpərvərlik və xeyriyyəçilik hisslərini aşılamaq məqsədi ilə gənclər arasında yaradıcılığın inkişafına yardım edir, elmi araşdırmalar aparır, ölkədə və xaricdə fəaliyyət göstərən müxtəlif qeyri-hökumət təşkilatları, regional və beynəlxalq qurumlarla əlaqə qurur və birlikdə layihələr həyata keçirir. "İTD" İB-nin təşəbbüsü ilə UNEC tələbələri ölkədə ilk dəfə olaraq, yeni "Kitab at" adlı çox maraqlı və özündə mütərəqqi ideyalar daşıyan layihəyə start verərək, onu ölkənin iri şəhərlərində - Bakıda, Gəncədə, Sumqayıtda və Lənkəranda həyata keçirmişdir. Məqsəd qədim adətlərə söykənən Novruzda papaqatma ənənəsini "Kitab at"la gündəmə gətirməklə ölkədə mütaliə mədəniyyətinin inkişafına nail olmaqdır.

**Təhsil sistemində ilk dəfə olaraq, UNEC-də onlayn "Bir pəncərə" xidməti də tələbələrimizin istifadəsinə təqdim edilmişdir. Layihənin məqsədi tələbələrin vahid mərkəzə müraciət edərək, tələb olunan təhsil sənədlərini ən qısa müddətdə əldə edə bilməsidir.**

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü və Enactus Azərbaycanın birgə təşkilatçılığı ilə "Gənc sahibkarlarla görüş" layihəsi keçirilir. UNEC-də "Talk From Business" layihəsi gənclərin gələcək bizneslərini qurmaq üçün yaradılan layihədir. Platformanın qurucuları və əsas aparıcı qüvvələri gənclərdən ibarət komandadır.

**UNEC təcrübəsində ilk dəfə olaraq "İnnovasiyalı iqtisadiyyatın inkişafı və perspektivləri" mövzusunda tələbələrin elmi-tədqiqat materialları əsasında hazırlanan kitab AccessBank-ın maliyyə dəstəyi hesabına çap olunub.**

Keyfiyyətli təhsilin təməlində zəngin kitabxana dayanır və UNEC-də 7 gün 24 saat müasir standartlara cavab verən kitabxana tələbələrin istifadəsinə verilib. Tələbələrin asudə vaxtlarını səmərəli keçirmək və xüsusi bacarığı ilə seçilən gənclərin bu potensialını daha da inkişaf etdirmək məqsədi ilə UNEC-in Yaradıcılıq Mərkəzinə üzv olmaq, eləcə də Radio UNEC-də maraqlı layihələrlə çıxış etmək imkanı var.

UNEC Kitabxana İnformasiya Mərkəzi və Tələbə Elmi Cəmiyyəti İQuiz İntellektual klubunun birgə təşkilatçılığı ilə "Biliyin carçıları" Milli Kvest Yarışı keçirilir. Yarışın keçirilməsində əsas məqsəd oxumağa və öyrənməyə meylli tələbələrin iqtisadi, tarixi, mədəni, məntiqi bilik və bacarıqlarının üzə çıxarılması, tələbələrin komanda ilə işləmə qabiliyyətlərinin yüksəldilməsi, birgə və intensiv qərarvermə xüsusiyyətlərinin inkişaf etdirilməsidir.

UNEC-in müəllim və tələbələrinin həmmüəllifi olduqları bir neçə məqalə "Davamlı İnkişafın sosial-iqtisadi problemləri" mövzusunda 18-19 iyun 2020-ci ildə 55-ci Beynəlxalq elmi konfransın kitabında nəşr olunub. Konfransın materialları beynəlxalq indeksləşdirilmiş elmi baza olan "Web of Science"a daxildir.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələrinin məqalələri Scopus və Web of Science məlumat bazasına daxil olan International Journal of Social Economics (ISSS 0306-8293) jurnalında nəşr olunub. Jurnalın SCOPUS tərəfindən hesablanan 2019-ci il üçün impakt faktoru (CiteScore) 1.2 -dir və Q2 kateqoriyasında yer alır.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Beynəlxalq İqtisadiyyat Məktəbinin tələbələri Mehin Əmiraslanova, Nigar Bəkirova və Nərmin Eynizadənin həmmüəllifi olduqları "Bakı şəhərində mənzil qiymətlərinə təsir edən faktorlar: empirik analiz (Determinants of housing prices in Baku: empirical analyses)" mövzusunda tədqiqat işi SCOPUS və Web of Science məlumat bazasına daxil olan International Journal of Housing Markets and Analyses (ISSS 1753-8270) jurnalında dərc olunub.

Azərbaycan Dövlət İqtisad Universitetinin "SABAH" Mərkəzinin mühasibat uçotu ixtisasının III kurs tələbələri Vəli Səməndərli və Zaur Məmmədovun həmmüəllifi olduqları "Təcavüzkar siyasətin Ermənistan iqtisadiyyatına təsiri" ("Impact of agressive policy to the economy of Armenia") adlı məqalə 58-ci Beynəlxalq elmi konfransda məruzə edilib. Məqalədə Qarabağ müharibəsi və Ermənistanın təcavüzkar siyasətinin həmin ölkənin iqtisadiyyatına və regiona təsirləri araşdırılıb. Ermənistanın yaratdığı və davam etdirdiyi münaqişə nəticəsində regional və beynəlxalq layihələrdən kənarda qalaraq itirdiyi imkanlar iqtisadi cəhətdən təhlil edilərək rəqəmlərlə göstərilib. Bununla yanaşı, məqalədə regionun ümumi mənzərəsinə nəzər yetirilərək, Azərbaycanla daim əməkdaşlıq edən Gürcüstan dövlətinin gəlirləri və əks mövqedə olan Ermənistanın itkiləri müqayisəli şəkildə təhlil edilib, Ermənistanın itirdiyi iqtisadi mənfəət statistik göstəricilərlə ifadə olunub. Konfransın materialları beynəlxalq indeksləşdirilmiş elmi baza olan "Web of Science"a daxildir.

**UNEC Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinin əsas perspektivləri**

UNEC-də elmi tədqiqat sahəsində təxirəsalınmaz vəzifələrdən biri də tələbələr üçün tədris proqramlarında elmi işlərin hazırlanması və yazılması kursunun tətbiqidir. Aşağı kurslarda bunlar ədəbiyyat icmallarının tərtibi və tərkibi üzrə seminarlar, orta kurslarda məqalələrin yazılması və planların tərtib edilməsi metodikası ilə tanışlıq, yuxarı kurslarda bir növ təlim olan müstəqil və kurs işlərinin yazılması və müdafiəsi üzrə seminarlar ola bilər.

UNEC Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinin əsas perspektivləri aşağıdakı kimi görünür: tələbələrin elmi işlərlə erkən tanışlığı; tələbələrin elmi tədqiqat işlərinə cəlb edilməsi; mövcud elmi məktəblər çərçivəsində aparıcı professorların rəhbərliyi ilə akademik qrupların yaradılması; universitetlərarası və beynəlxalq əməkdaşlığın gücləndirilməsi; tələbələrin nəşriyyat və innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün şəraitin yaradılması; tələbələrin əqli mülkiyyətin müxtəlif formalarının inkişafı və əldə edilməsi prosesinə cəlb edilməsi; Qrant siyasətinin formalarının təkmilləşdirilməsi.

Elmi tədqiqat fəaliyyətinin həyata keçirilməsinin nəticələrini aşağıdakı kimi qiymətləndirə bilərik:

***1. yüksək nəticələr əldə etmiş tələbələrin magistratura və doktorantura təhsili alması üçün tövsiyələr;***
***2. ictimai həvəsləndirmə (təşəkkür elan etmə, mükafatlandırma və s.);***
***3. elmi fəaliyyətin nəticələrinin dərci, müəlliflik şəhadətnamələrinin alınması və s.;***
***4. tələbənin istəyi əsasında fərdi təhsil trayektoriyasının formalaşdırılması;***
***5. işəgötürən tərəfindən "müəyyənləşdirilməsi" və daha bacarıqlı tələbələrin işə cəlb edilməsi, bununla da onların universitetin həyatındakı rolunun artırılması;***
***6.ən istedadlı tələbələr üçün ölkənin digər universitetlərində və xaricdə təcrübə keçməsinin təmin edilməsi;***
***7. qrant vəsaitlərinin cəlb edilməsi və müqavilə işlərinin yerinə yetirilməsi.***
***8. universitetdə tələbələrin məqalələrinin dərc edilməsi üçün müvafiq jurnalın təsis edilməsi.***

Hazırda UNEC-də Azərbaycan iqtisadiyyatının müxtəlif problemlərinin tədqiqi ilə məşğul olan "İslam maliyyə mərkəzi", "Avropa iqtisadiyyatı tədqiqat mərkəzi", "Empirik tədqiqatlar mərkəzi", "Xarici ticarətə dəstək mərkəzi", "Digital marketinq mərkəzi", "Ermənistan iqtisadiyyatını araşdırma mərkəzi", "İnkişaf iqtisadiyyatı laboratoriyası", "Rəqəmsal iqtisadiyyat tədqiqat mərkəzi", "Koqnitiv iqtisadiyyat tədqiqat mərkəzi", "Bilik iqtisadiyyatı tədqiqat mərkəzi" kimi mərkəzlər fəaliyyət göstərir. Yeni yaradılmış bütün bu strukturlarda UNEC-in professor-müəllim heyəti ilə birgə tələbə, magistr və doktorantlar da tədqiqat aparmaq imkanı əldə etmişdir. Universitetimiz qarşıdakı illərdə tədqiqat universiteti statusunu əldə etməyi özünün başlıca strateji məqsədlərindən biri kimi müəyyən etmişdir.

**Səadət QƏNDİLOVA,**
**Əməkdar müəllim, dosent,**
**Azərbaycan Dövlət**
**İqtisad Universitetinin**
**(UNEC) prorektoru**

# "NEOSOL Holding" Azərbaycan vətəndaşlarının